# “Daha güclü Azərbaycan naminə hamımız Mübariz olmalıyıq”

***Babəkdən, Şah İsmayıldan, Koroğludan üzü bu yana tariximizin qəhrəmanlıq səhifələri yenilməz oğullarımızın adıyla şərəflənib. Bizim həzilərimiz, mehdilərimiz, geraylarımız hər zaman olub. Elə müstəqillik illərində, Qarabağ uğrunda döyüşlərdə neçə-neçə igid Azərbaycan oğlu misilsiz qəhrəmanlıq nümunəsi göstərib, şərəfli ölümü ilə müqəddəs şəhidlik zirvəsinə ucalıb. Azərbaycanın ərazi bütövlüyü naminə canından keçmiş dünyaca məşhur Mübariz İbrahimov kimi.***

Tarixi mənbələrdə göstərilir ki, Biləsuvarın ərazisindən keçən Bolqar çayı zaman-zaman müxtəlif adlar daşıyıb. Bu adlardan biri də Qələbə olub. Düşmən üzərində qələbə çalmaq amalı ilə döyüşlərə atılan Milli Qəhrəman Mübariz İbrahimov da həmin torpağın yetirməsidir.

Mübariz 1988-ci il fevral ayının 7-də doğulub, Qarabağ müharibəsi ilə həmyaşdır. Anadan olanda adının Mübariz qoyulması bəlkə də bir tanrı sədası, onun gələcək taleyindən verilən soraq idi. Xalqımızın ulu qəhrəmanlıq ənənələri ruhunda böyüyən Mübariz orta təhsilini şəhid Malik Piriyev adına Əliabad kənd orta məktəbində alıb. Bəlkə elə şəhid adını daşıyan məktəbdə oxuması da onun taleyini müəyyənləşdirən amillərdən olub. O, vətənə hərbçi kimi qulluq etməyi özünün həyat devizinə çevirib. 2006-cı ilin yazında həqiqi hərbi xidmətə çağırılan gənc Mübariz Daxili Qoşunların “N” saylı hissəsinin xüsusi təyinatlı bölüyündə atıcı əsgər olub, həqiqi hərbi xidmətini çavuş rütbəsində başa vurub. 2009-cu ildə yenidən, bu dəfə gizir kimi orduda çalışmağa başlayıb. Çox keçmədən öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birinə xidmətə göndərilib. Daşıdığı Mübariz adını doğruldub. “Mən yolumu seçmişəm. Düşməndən ürəyimcə qisas almasam, elə bilərəm ki, Allahım da, valideynlərim də məni bağışlamaz. Vətənin azadlığı üçün qurban lazımdırsa, biri mən...” – deyib.

Bu sətirlər isə Mübarizin evə yazdığı son məktubundandır: “Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam – ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim... Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin”.

...Düz 10 il əvvəl, iyunun 18-dən 19-a keçən gecə Tərtər rayonunun Çaylı kəndi yaxınlığında 22 yaşlı gizir Mübariz İbrahimov döyüş növbəsində olduğu vaxt düşmən tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində başlanan atışmada şəxsi rəşadət nümayiş etdirir. Təkbaşına təmas xəttinin bir kilometrlik minalanmış sahəsini keçir. Qəfil həmləsi ilə Ermənistan ordusunun çox sayda əsgər və zabitini məhv edir. Sonra isə düşmənin öz silahlarından onun özünə qarşı istifadə edərək 5 saat təkbətək döyüşür. Düşməni çox ağır itkilərə məruz qoyur. Azərbaycan döyüşçüsü səhərə yaxın qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olur.

Ölkə Prezidenti cənab İlham Əliyevin 22 iyul 2010-cu il tarixli sərəncamı ilə gizir Mübariz Ağakərim oğlu İbrahimova Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyünün qorunmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə



görə ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. İgid eloğlumuzun düşmən tərəfdə qalmış nəşi bir müddət sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli səyləri sayəsində alınaraq doğma Vətənə gətirilmişdir.

Mübariz ölümün gözünə dik baxıb, qeyri-adi şücaəti ilə müasir Azərbaycan gəncliyinin yenilməzlik simvoluna çevrilib. Canını vətən yolunda fəda etməsi ilə özündən sonra böyük bir şəhidlik məktəbi qoyub. Hər bir azərbaycanlı onun mübarizə dolu həyatı ilə fəxr edir. Mübarizin qısa, lakin şərəfli həyatı unudulmaz xalq şairi Səməd Vurğunun "Ölüm var ki, həyat qədər dəyərli..." – misrasını yada salır.

Prezident İlham Əliyev qəhrəmanla vida mərasimindəki nitqində onun əbədiyyət yolçuluğunu yüksək qiymətləndirmişdir: “Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclər üçün örnəkdir, nümunədir...Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi qəhrəmanlar vardır. Onlar Ali Baş Komandanın əmrini gözləyirlər. Onlar öz doğma torpaqlarını azad etmək üçün hər an hazırdırlar. Azərbaycan Ordusu Cənubi Qafqazda ən qüdrətli, ən peşəkar, ən mübariz ordudur və şəhidlərimizin qəhrəmanlığı bunu bir daha sübut edir. Bizdə nəinki böyük sayda silah-sursat, hərbi texnika, döyüş imkanları vardır, eyni zamanda, ordumuzda böyük ruh yüksəkliyi vardır. Çünki bizim işimiz haqq işidir. Biz heç bir ölkənin torpağını zəbt etməmişik. Bizim torpaqlarımız uzun illərdir ki, işğal altındadır. Bizim heç bir başqa dövlətin torpağına iddiamız yoxdur. Amma öz torpağımızdan heç kimə bir qarış verməyəcəyik. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik”.

Şəhidlik zirvəsinə ucalmasından ötən müddətdə Mübariz İbrahimovun adı dövlətimiz və xalqımız tərəfindən daim uca tutulub. Ölkə daxilində və xaricində igid vətən oğlunun əziz xatirəsini əbədiləşdirən çox sayda təşəbbüs reallaşdırılıb. Şair və yazıçıların bədii yaradıcılıq nümunələrində qəhrəmanın parlaq obrazı yaradılıb. Milli Qəhrəmanın xatirəsinin əbədiləşdirilməsi məqsədilə, doğulub boya-başa çatdığı Biləsuvar rayonunda lisey kompleksinə və küçələrdən birinə onun adı verilib. M.İbrahimovun ailəsi üçün Əliabad kəndinin giriş hissəsində ikimərtəbəli yaşayış evi tikilib, ərazidə yaşıllıq zolağı salınıb, magistral yol genişləndirilib, asfaltlaşdırılıb və müasir işıqlandırma sistemi quraşdırılıb.

Onun ömür yolu gənc nəslə əsl vətənpərvərlik örnəyi kimi aşılanır. Bəlkə də elə bir gün olmur ki, qəhrəmanın doğma Əliabad kəndində qonaq-qara olmasın. Ölkənin bütün guşələrindən Mübariz ocağına ziyarətçilər gəlir. Evin qapısı hər vaxt qonaqlarının üzünə açıqdır. Qəhrəmanın atası Ağakərim kişinin səhhətində yaranan problemlər bəzən qonaqları lazımınca qarşılamağa imkan verməsə də, o, bunu əsla hiss etdirmir. Ağır cərrahi ürək əməliyyatından sonra da ziyarətçiləri gülə-gülə qarşılayaraq, onlara “Mübariz sizin də övladınız, qardaşınızdır!” – deməkdən qürur duyur.



On ildir ki, Əliabad kəndini Mübarizin kəndi adlandırırlar. Bura gələn hər kəs ondan xatirə qalmış əşyalarla, fotoguşəylə tanış olur, qəhrəmanın əziz xatirəsinə sonsuz ehtiramını bildirir. Bir müddət öncə, Milli Qəhrəmanın ata evinin həyətində yeni ev-muzeyinin tikintisinə başlanmışdır. Xüsusi memarlıq üsulubunda yaradılan muzey tezliklə istifadəyə veriləcək. Sahəsi 140 kvadratmetr olan muzeyin formalaşdırılmasını Biləsuvar Regional Mədəniyyət İdarəsi həyata keçirir. Milli Qəhrəmanın uşaqlıq, gənclik və hərbi xidmət illərini əks etdirən guşələr zənginləşdirilir.

Milli Qəhrəmanın atası Ağakərim kişi bizimlə söhbəti zamanı dedi ki, hər il Biləsuvarda Mübarizin doğum və anım günləri böyük qədirbilənliklə qeyd olunub. Ötən illər ərzində Əliabada gələn ziyarətçilər indən belə qəhrəmana ehtiramlarını yeni muzeydə göstərəcəklər. Dövlətimizin bu vacib məsələyə diqqətindən həddsiz razıyam. Arzu edirəm ki, bütün gənclərimizin ürəyi daim Vətən sevgisi ilə döyünsün, bu muzey onlara vətənpərvərlik, mübarizlik hissləri aşılasın.

Möhtərəm ağsaqqal daha sonra bildirdi ki, ölkəmizin gələcək taleyini düşünən hər kəs daim Prezidentinin yanında olmalı, dövlət başçımızın uğurlu siyasi xəttinə dəstəyini əsirgəməməlidir. Biz hər zaman yumruq kimi birləşib, həmrəylik nümayiş etdirməli, vətən eşqimizi ona təmənnasız qulluqda, əməli işlərdə göstərməliyik. Vətənə sevgi imandandır. Əbəs yerə deyilmir ki, hər şey vətən üçün, hər şey qələbə üçün! Bu gün vətəni, xalqı qəlbən, ruhən sevmək, bu yolda əsl fədakarlıqlar göstərmək zamanıdır. Daha güclü Azərbaycan naminə hamımız Mübariz olmalıyıq!

Prezident İlham Əliyev bu il iyunun 3-də Tərtər Olimpiya İdman Kompleksinin açılışında çıxışı zamanı Ermənistanın əsassız ərazi iddialarına münasibətini bir daha qəti şəkildə ifadə edərək bildirib ki, onlar buraya XIX əsrdə köçürülmüşlər. Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıb. Biz onların nankor işğalçılıq siyasəti ilə heç zaman barışmayacaq, layiqli cavablarını verəcək və ərazilərimizi mənfur düşməndən tamamilə təmizləyəcəyik.

Dövlətimizin başçısının Tərtərdə - on il əvvəl Mübariz İbrahimovun böyük qəhrəmanlıq göstərərək şəhid olduğu bir məkanda söylədiyi bu fikirlər xalqımızın böyük qələbəyə inam hissini daha da artırmışdır. Əminik ki, tezliklə doğma Qarabağımız işğaldan azad ediləcək və məhz o zaman Mübariz İbrahimovun, digər şəhid oğullarımızın ruhları şad olacaqdır.

***Surxay ŞAHBAZOV,***
***“Region Press” qəzetinin baş redaktoru,***
***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***